# Əməkdar incəsənət xadimi, professor Elmira Quliyeva haqqında

**İfaçılıq sənətində daim mühüm yer tutmuş Avropa üslublu vokal sənəti, Azərbaycan musiqisində geniş zirvələrə qalxaraq inkişaf etmiş və ifaçılıq ənənəsini yaratmaqla biri-birindən fərqlənən vokal məktəblərinin açılmasına gətirib çıxarmışdır.**

**Vokal sənəti sahəsində yüksək və əvəzsiz xidmətləri olan Azərbaycanın əməkdar incəsənət xadimi professor Elmira xanım Quliyevanın əməyinin nəticəsidir ki, hal-hazırda Azərbaycan opera və balet teatrında çalışan onlarca gözəl səsə və nadir ifa üslubuna malik olan solistlər istər Azərbaycan, istərsə də dünya klassik bəstəkarlarının yazıb yaratdığı opera əsərlərini, romanslarını sevə-sevə ifa edirlər.**

Elmira xanım Quliyeva Azərbaycan Dövlət Konservatoriyasında (Bakı Musiqi Akademiyası) həyatını tələbələrinə həsr edərək, qeyd etdiyim kimi bu sahədə öz nadir istedadı ilə bir müəllim və ictimai xadim kimi əvəzsiz xidmətlər göstərmişdir.

Elmira Quliyeva 1928-ci il mart ayının 27-də Bakıda ziyalı ailəsində anadan olmuşdur. O, Azərbaycan Dövlət Konservatoriyasının ( Bakı Musiqi Akademiyası) vokal şöbəsində təhsil almış və elə tələbə ikən ailə həyatına qədəm qoymuşdur. Həyat yoldaşı zabit vəzifəsində olduğundan təhsilini Estoniya Respublikasının Tallin Konservatoriyasında professor Arderin sinfində davam etdirmişdir. Təhsilini bitirdikdən sonra Bakıya dönərək bir müddət Azərbaycan Dövlət İncəsənət İnstitutunda (İncəsənət Universiteti) vokal şöbəsində kafedra müdiri olaraq çalışmışdır. Hal-hazırda Azərbaycan Dövlət Konservatoriyasının vokal şöbəsində fəaliyyət göstərməkdədir.

Sinfinə daxil olan hər tələbənin təbii istedadını və bacarığını üzə çıxarmaq üçün dərs zamanı böyük diqqətə, səbrə, mətanətə, inada malik olan Elmira xanım tələbəyə qarşı xeyirxah münasibəti və anlaşma mühiti ilə tələbənin sinfə tez alışmasına onun bacarıq və məharətinin daha sürətlə irəliləməsinə, inkişaf etməsinə nail olur. O, öz gücü müqabilində vokal texnikasının sirlərini aşılayan zaman hər bir tələbənin özünəməxsus psixoloji vəziyyətini nəzərə alaraq izah edir. Ümumiyyətlə, Elmira Quliyevanın dərs metodikası çox zəngindir. Elmira xanım bütün həyatını demək olar ki, gəncliyini bizlərə, yəni tələbələrə həsr edib. O, tələbələrindən nəinki müəllim, hətta ana qayğısını belə əsirgəməmişdir.

1981-ci ilin iyun ayları həyatımda əlamətdar, unudulmaz illərdən biri idi. Sənədlərimi Azərbaycan Dövlət Konservatoriyasının vokal şöbəsinə qəbul olmaq üçün verməli idim. Sənəd vermək özü də bir imtahan idi. Yaşım az olduğundan bir çox maneələrlə üzləşməli oldum. Çünki o illərdə solo oxuma şöbəsinə (vokal) 19 yaşına çatmamış heç bir gənci qəbul etməzdilər. Məhz bu səbəbdən geri dönməli idim. Lakin hansısa bir qüvvə məndə inad hissi yaratdı.

Konservatoriyanın foyesindən pillələri iti addımlarla yuxarı çıxdım, sanki son dəfə solo oxuma (vokal) şöbəsi ilə vidalaşırmışam kimi sinif otaqlarına diqqət edərkən otaqlar bağlı olduğundan yalnız bir sinifdən soprano səsini duydum (Şubertin "Blocenstvo" romansı ifa olunurdu). Qapını açıb heyranlıqla dinləyirdim, elə bil sehrə dalmışdım. Pianoçu konsertmeyster hələ o zamanlar tanımadığım, mərhum dosent Lalə xanım məni görüb sinfə dəvət etdi. Pəncərənin önündə nur ifadəli eynəkli gözəl bir xanım əyləşmiş, əlindəki qələmlə nə isə qeyd edirdi. O, Elmira Quliyeva idi. Mən, sənədlərimi qəbul etmirlər, - deyə ağlamsındım.

Lalə xanım məndən hansı əsəri ifa etdiyimi soruşdu. Mən dahi Üzeyir Hacıbəyovun , Nizami Gəncəvinin "Sənsiz" qəzəlinə bəstə etdiyi romansı ifa etdim. Elmira xanım səsimi duyar-duymaz özü piano arxasına keçərək diapazonuma diqqət etdi və - Kolaratura dedi. - Nə deməkdir kolaratura? - Zil qadın səsi, deyərək o özəl və gülümsər ifadəsini məndən gizlətmədi və Elmira xanım öz önəmli zamanını mənə sərf edərək sənədlərimi qəbul elətdirmək üçün məsul katibi saatlarla gözləməli oldu. Bəli, bizim ilk tanışlığımız bu unudulmaz günə təsadüf etdi.

Yeri gəlmişkən onu da qeyd edim ki, mənə vokal sənətini sevdirən, həvəsləndirən Azərbaycanın xalq artistləri Xuraman və Fidan Qasımova bacılarının ecaskar səsi ilə yanaşı, mərhum, Azərbaycan Respublikasının xalq artisti Zemfira xanım Quliyeva olmuşdur. 1966-cı ildə Azərbaycan kinematoqrafçıları Tofiq Tağızadə və Muxtar Dadaşov tərəfindən çəkilmiş dahi Üzeyir Hacıbəyovun "Arşın mal alan" filmində Gülçöhrənin səsini ifa edən o gözəl sənətkar məndə opera sənətinə dərin maraq və məhəbbət oyatmışdır. Bu maraq, vokal sənətinə sonsuz sevgi məni Azərbaycan Dövlət Konservatoriyasının vokal şöbəsinə gətirib çıxardıb və xoşbəxtlikdən professor Elmira xanım Quliyevanın sinfində təhsil almağıma səbəb olub. Mən Elmira xanımın əllərindən öpür və onun qarşısında baş əyirəm.

Elmira xanım Quliyeva haqqında danışdıqca söz bitmir, tükənmir. Onun vokal məktəbi tamamilə fərqlidir. Belə ki, hər hansı bir tədbirdə və yaxud opera tamaşasında onun yetişdirdiyi tələbələrinin ifa üslubu səsinin zəngin tembri ilə özünü büruzə verir. Elmira xanımda digər vokal müəllimlərindən fərqli və önəmli xüsusiyyətlərdən biri də odur ki, dərsinə gələn tələbənin əhvalının müsbət olub-olmadığını, yorğunluğunu nəzərə alaraq qayğısını ondan əsirgəməyərək tələbəni hökmən dinləndirib sonra dərsinə başlayırdı.

Onun zənnincə, tələbə və müəllim arasında olan səviyyənin uzaqlığı və yaxınlığı tələbədə dərsin tez mənimsənilməsinə belə hətta müsbət və ya mənfi təsir göstərə bilər. Məhz bunun nəticəsidir ki, Elmira xanımın tərbiyə verdiyi ifaçı tələbələr öz zəngin ifa üslublarına və səs tembrlərinin metalabənzər ahənginə və vokal ifaçı ustalığına görə digər ifaçılardan fərqlənirlər.

Elmira xanım Quliyevanın yetişdirdiyi ifaçı tələbələrdən beynəlxalq müsabiqə laureatları, Azərbaycan xalq artistləri, Azərbaycan əməkdar artistləri, Opera və Balet Teatrı səhnəsində solist olaraq dahi Üzeyir Hacıbəyovun "Koroğlu" operasından, Koroğlunu, Nigarı, Həsən xanı, Fikrət Əmirovun "Sevil" operasından Sevili, Balaşı, dünya klassik bəstəkarlarından Cüzeppe Verdinin "Aida" operasından Aidanı, "Otello" operasında Otellonı, "Riqoletto" operasında Riqolettonu, Cildanı, "Traviata" operasından Alfredonı, Violettanı, Corj Bizenin "Karmen" operasından Karmeni. Eləcə də, Puçinini, Rossini, Bellini, Hendel, Bax, Motsartın və sairə bəstəkarların əsərlərinin qəhrəmanlarının partiyasını məharətlə ifa edirlər.

**Azərbaycan xalq artistləri Qərinə Kərimova, Şahlar Quliyev, əməkdar artistlər Əli Əsgərov, Zemfira İsmayılova, Ülvi Qılınc, İlahə Əfəndiyeva, əməkdar artist, müğənni Azərin, Bülbül adına beynəlxalq müsabiqə laureatı Cavid Səmədov və onlarca bir çox sənətkarlar Elmira xanım Quliyevanın zəngin dərs metodikasından faydalanmışlar.**

● **Mahirə HƏSƏNOVA,**
*Ü. Hacıbəyli adına BMA-nın baş müəllimi*

## Ədəbiyyat

1. Elmira Quliyeva Elmi iş. "Vokal ifaçısının yetişdirilməsi". Bakı - 1999.
2. Həsənova Mahirə "Ümumi vokal fənninin ifaçılıq metodikası". Bakı. "Adiloğlu" - 2010.

**Резюме**

В этой статье рассказывается "о заслуженном деятели искуств Азербайджана Елмиры ханум Гулиевой". В статье представляется деятельность ее работы и практики. Здесь рассматривается методика воспитания Елмиры Гулиевой, и о развитие студентов вокальной сфере, так же учившиеся исполнительские студенты Елмиры Гулиевой в данный момент являются примером для нашего народа.

**Summary**

This article discusses about "deserved deyteli Arts Azerbaijan Elmiry Khanum Guliyeva. The article seems deytelnost her work and practice. Here we consider the methods of education Elmiry Guliyeva, and the development of students' vocal area, as well performing students who studied Elmiry Guliyeva at the moment is an example for our people.